"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" üzrə Əlaqələndirmə Qrupunun iclasının

Protokolu № 1

Bakı şəhəri **13 noyabr 2026-cı il**

İştirak edirdilər:

Əlaqələndirmə qrupunun üzvləri:

Sahir Rüstəmov - Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparat rəhbəri, Əlaqələndirmə qrupunun üzvü;

Ramil Hüseyn - İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini;

Sahib Xəlilov - Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Bərpa olunan enerji mənbələri ərazilərinin inkişafı şöbəsinin müdir müavini;

Elgün Cavadov - Dövlət Turizm Agentliyinin Mədəni irs və regional turizm şöbəsinin müdiri;

Elçin Məmmədov - Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Sənədlərlə və müraciətlərlə iş şöbəsinin Dövlət proqramları ilə işlərin icrasına nəzarət sektorunun müdiri;

Dəvət olunanlar:

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyindən

Zakir Məmmədov - Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin Dövlət nəzarəti, təhlil və strateji planlaşdırma şöbəsinin müdiri;

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyindən

Kazım Hüseynəliyev - Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri;

Tapdıq Əliyev - Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat nazirinin müavini;

Müslüm Cabbarzadə - Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat nazirinin müavini;

Mərkəzi Bankdan

Elçin Əliyev - Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri;

Dövlət Gömrük Komitəsindən

Faiq Orucov - Dövlət Gömrük Komitəsinin Daxilolmalara Nəzarət Baş İdarəsinin Gömrük Güzəştlərinə Nəzarət idarəsinin rəisi;

Cəfər Cəfərov - Dövlət Gömrük Komitəsinin Gömrük İnzibatçılığı Baş İdarəsinin Buraxılış Məntəqələri üzrə iş idarəsinin rəisi;

Günay Məmmədova - Dövlət Gömrük Komitəsi Katibliyinin Qərarların icrasına nəzarət şöbəsinin baş inspektoru;

Energetika Nazirliyindən

Namiq Paşayev - Elektrik və istilik enerjisi şöbəsi, Elektrik enerjisi sektorunun müdiri;

İqtisadiyyat Nazirliyindən

Zamin Bədirxanov - İqtisadiyyat Nazirliyinin Regionların inkişafı şöbəsinin müdiri;

Müşviq Mahmudov - İqtisadiyyat Nazirliyinin Regionların inkişafı şöbəsinin Regional inkişaf siyasəti sektorunun müdiri;

Müşviq Hüseyinli - İqtisadiyyat Nazirliyinin Regionların inkişafı şöbəsinin İcmal və əlaqələndirmə sektorunun müdiri;

Əli Kərimzadə - İqtisadiyyat Nazirliyinin Layihələrin idarəolunması şöbəsinin Strateji layihələr sektorunun müdiri;

Cavid Qədimov - İqtisadiyyat Nazirliyinin Regionların inkişafı şöbəsinin Regional inkişaf siyasəti sektorunun baş məsləhətçisi;

Özal Rüstəmli - İqtisadiyyat Nazirliyinin Regionların inkişafı şöbəsinin İcmal və əlaqələndirmə sektorunun baş məsləhətçisi;

Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyindən

Tural Hacılı - Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin nümayəndəsi;

Əli Babayev - Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin nümayəndəsi;

İqtisadi Zonaların İnkişafı Agentliyindən

Emil Hacıyev - İqtisadi Zonaların İnkişafı Agentliyinin idarə heyəti sədrinin müavini;

Əziz Xəlilov - İqtisadi Zonaların İnkişafı Agentliyinin idarə heyəti sədrinin müavini;

Kənd Təsərrüfatı Nazirliyindən

Səadət Hacıyeva – Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsinin direktor müavini;

Azərbaycan Respublikası Dövlət Neft Şirkətindən

Nəriman Mehdiyev - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Baş ofisinin Qaz infrastrukturunun idarə edilməsi və təkmilləşdirilməsi Departamentinin rəis müavini.

Əlaqələndirmə qrupunun katibləri:

Fariz Əhmədov - İqtisadiyyat Nazirliyinin Regionların inkişafı şöbəsinin müdir müavini;

Yaqub Məmmədov - Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdir müavini, Əlaqələndirmə qrupunun katibi;

Gündəlikdəki məsələlər:

- Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikası ilə bağlı aktlarının və tapşırıqlarının icrasına dair Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin 2026-cı il 1 sentyabr tarixli 1 nömrəli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə qrupunun fəaliyyəti barədə məlumat verilməsi;

- Naxçıvan Muxtar Respublikasında tətbiq edilən güzəştlər, dəstək mexanizmləri, habelə "Naxçıvan azad iqtisadi zonası haqqında" Qanun layihəsi barədə məlumat verilməsi;
- Naxçıvan Sənaye Parkının yaradılması istiqamətində işlərin cari vəziyyəti barədə məlumat verilməsi;
- Naxçıvan Muxtar Respublikasında istehsal olunan malların ixracı və daxili daşıma dəstəyi mexanizmlərinin tətbiqi barədə məlumat verilməsi;
- Naxçıvan İstilik Elektrik Stansiyasının tikintisi layihəsinin cari vəziyyəti barədə məlumat verilməsi;
- "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2025–2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı"nın 2025-ci il üzrə icrasına dair monitorinq və qiymətləndirmə nəticələri barədə məlumat verilməsi.

Çıxışlar və müzakirələr:

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Aparatının Regionların inkişafı şöbəsinin müdiri **Zamin Bədirxanov** giriş sözü ilə iclası açaraq iştirakçıları salamladı, iclasın məqsədi və gündəliyə daxil edilmiş məsələlər barədə məlumat verdi.

Gündəliyin birinci məsələsi üzrə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparat rəhbəri **Sahir Rüstəmov** Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikası ilə bağlı aktlarının və tapşırıqlarının icrası üzrə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin 2026-cı il 1 sentyabr tarixli 1 nömrəli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə qrupunun fəaliyyəti barədə məlumat verdi. O bildirdi ki, qrupun yaradılmasında əsas məqsəd 12 istiqamət üzrə müəyyən edilmiş akt və tapşırıqlarda nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı vahid koordinasiyasını təmin etməkdir. Bundan əlavə, qurumlar arasında məlumat mübadiləsinin təşkili, layihələrin icrası zamanı yaranan çətinliklərin aradan qaldırılması, xüsusilə də Naxçıvan Muxtar Respublikası qurumlarının üzərinə düşən vəzifələrin vaxtında icrasının təmin edilməsi qrupun əsas vəzifələrindəndir.

S. Rüstəmov qeyd etdi ki, Əlaqələndirmə qrupu 60 qurumun nümayəndəsindən ibarətdir və qrupun fəaliyyəti bu nümayəndələr vasitəsilə həyata keçirilir. Ötən dövr ərzində 12 istiqamət üzrə qrupun iclasları keçirilib.

Gündəliyin ikinci məsələsi üzrə **Z. Bədirxanov** Naxçıvan Muxtar Respublikasında tətbiq olunan güzəştlər və dəstək mexanizmləri barədə məlumat verdi. Bildirdi ki, işğaldan azad edilmiş ərazilər üçün nəzərdə tutulmuş güzəştlər və dəstək mexanizmləri əsas götürülməklə Naxçıvan Muxtar Respublikası üçün də müvafiq təkliflər hazırlanmış, həmin təkliflər əsasında Vergi

Məcəlləsinə dəyişikliklər edilmiş və güzəştlərin tətbiqinə başlanılmışdır. Həmin dəyişikliklərə əsasən, 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə NMR ərazisində qeydiyyata alınmış sahibkarlıq subyektləri, rezidentlər mənfəət (gəlir), əmlak, torpaq, sadələşdirilmiş vergilərdən və dividend gəlirləri vergisindən azad olunur. Bundan əlavə, Naxçıvan Sənaye Parkının rezidentləri tərəfindən xammal və materialların idxalı, həmçinin NMR-in ərazisində yerləşən sənaye məhəllələrinin rezidentləri tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı ƏDV-dən və idxal gömrük rüsumlarından azad edilmişdir.

Z. Bədirxanov həmçinin qeyd etdi ki, 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə istehsal, o cümlədən emal və hasilat sahələrində fəaliyyət göstərən rezidentlər üçün məcburi dövlət sosial sığorta haqqı mərhələli olaraq subsidiyalaşdırılır.

Çıxışını davam etdirən Z. Bədirxanov Naxçıvan Muxtar Respublikasında azad iqtisadi zonanın (AİZ) yaradılması istiqamətində cari vəziyyət barədə məlumat verdi. O qeyd etdi ki, müvafiq qanun layihəsi 2025-ci ilin avqust ayından dövlət qurumları ilə razılaşdırma mərhələsində olub və hazırda işçi qaydada razılaşdırılıb. Qanun layihəsi və onunla əlaqədar digər layihələr 12 noyabr 2026-cı il tarixində aidiyyəti dövlət qurumlarına razılaşdırılması üçün təqdim edilib. Həmçinin Qanun layihəsi üzrə maliyyə-iqtisadi əsaslandırma sənədi hazırlanaraq Maliyyə Nazirliyinə təqdim edilmişdir. NMR-in ərazisində müəyyən güzəştlər mövcuddur və sənaye parkında da əlavə güzəştlər var. Sənaye parkında sahibkarlar rezident olduğu andan etibarən 10 il müddətinə güzəştlərə sahib olduğu halda, AİZ-də bu müddətsizdir. Həmçinin Z. Bədirxanov AİZ-də bir çox sahələrin daxili qaydalarla tənzimlənəcəyini, daxili qaydalarla tənzimlənməyən məsələlərin isə əsas iqtisadiyyatın qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəyini qeyd etdi.

Gündəliyə uyğun olaraq İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin müavini **Əziz Xəlilov** Naxçıvan Muxtar Respublikasında sənaye parkının yaradılması istiqamətində görülən işlər barədə məlumat verdi. O bildirdi ki, şəhərsalma əsaslandırması layihəsi təqdim edilib və Naxçıvan Muxtar Respublikasının Layihə Planlaşdırma Mərkəzindən rəy gözlənilir və bundan sonra layihə aidiyyəti qurumlara göndəriləcəkdir. Bundan əlavə, texniki su təchizatı (Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi), qazlaşdırma ("Azəriqaz" QSC), habelə ərazidən keçən mövcud su boruları və elektrik xətlərinin köçürülməsi məsələləri üzrə aidiyyəti qurumlarla yazışmalar davam etdirilir.

Eyni zamanda İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin müavini **Emil Hacıyev** bildirdi ki, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə birgə Muxtar Respublikada sahibkarlarla görüş təşkil olunub. Görüşdə müzakirə edilən 30–35 layihədən 17-i üzrə iş davam edir, onlardan 13-ünün sənədləşdirmə məsələsi həll olunub. Layihələr müvafiq 5 istiqamət üzrə qruplaşdırılıb.

Daha sonra Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin (KOBİİTA) nümayəndəsi **Tural Hacılı** Naxçıvan Muxtar Respublikasında istehsal olunan malların ixracı və daxili daşınmasına dəstək mexanizmlərinin tətbiqi barədə təqdimatla çıxış etdi. T. Hacılı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2026-cı il 9 iyun tarixli 681 nömrəli Fərmanı ilə yaradılmış iki dəstək mexanizmindən danışdı və qeyd etdi ki, Fərmana əsasən 1 sentyabr 2026-cı ildən etibarən 10 il müddətində Azərbaycan mənşəli qeyri-neft-qaz mallarının xarici bazarlara ixracı zamanı daşınma xərclərinin 70%-dək hissəsi, eləcə də Naxçıvan Muxtar Respublikasında istehsal olunan Azərbaycan mənşəli qeyri-neft-qaz mallarının ölkənin digər ərazilərinə daşınması xərclərinin 70%-i sahibkarlara geri ödəniləcək.

Çıxışda bildirildi ki, dəstək üçün müraciətlər rüblük əsasda, ixrac zamanı malın gömrük ərazisini, daxili daşıma zamanı isə Naxçıvan Muxtar Respublikasının ərazisini tərk etdiyi tarixdən 210 günədək təqdim edilməlidir. Eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 23 oktyabr tarixli 349 nömrəli qərarı ilə təsdiq edilmiş "Malların Azərbaycan mənşəli olmasının müəyyən edilməsi Qaydası" və 350 nömrəli qərarı ilə təsdiq edilmiş "İxrac və daxili daşıma dəstəklərinin şamil olunmadığı əməliyyatların və şəxslərin Siyahısı" barədə məlumat verildi.

T. Hacılı bildirdi ki, növbəti mərhələdə "İxrac daşıma dəstəyinin şamil olunacağı malların və ölkələrin siyahısı", "İxrac və daxili daşıma dəstəyinə müraciət və baxılma qaydası", habelə "Multimodal daşımalar üzrə dəstəyin hesablanması qaydası" Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Kollegiyasının qərarı ilə təsdiq ediləcəkdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev Naxçıvandan olan sahibkarlar və ixracatçılar tərəfindən sözügedən dəstək tədbirlərinin başlama tarixi ilə bağlı Nazirliyə müraciətlərin daxil olduğunu və Kollegiya qərarının nə zaman təsdiq ediləcəyi haqqında sual ünvanladı. T. Hacılı cavab olaraq Kollegiya qərarının artıq aidiyyəti qurumlarla razılaşdırıldığını və yaxın müddət ərzində İqtisadiyyat Nazirliyində təsdiqlənərək qeydiyyata alınacağını bildirdi.

Bundan sonra çıxış sözü Naxçıvan İstilik Elektrik Stansiyasının tikintisi layihəsinin cari vəziyyəti barədə məlumat verilməsi üçün Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Baş ofisinin Qaz infrastrukturunun idarə edilməsi və təkmilləşdirilməsi Departamentinin rəis müavini **Nəriman Mehdiyevə** verildi. N. Mehdiyev hal-hazırda layihənin ilkin detallı mühəndislik mərhələsinin 75%-inin icra olunduğunu və yanvar ayının sonuna qədər bu mərhələni bitirməyi planladıqlarını bildirdi. Topoqrafik işlərin tamamlandığı, texniki sənədlərin nəzərdən keçirilməsi, əsas avadanlıqların alınması üzrə tender prosesi və istehsalçılarla danışıqların davam etdirildiyi, İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) ilə niyyət razılaşmasının imzalandığı, həmçinin İZİA ilə

tikinti və istismar sərfiyyatının qarşılanması, su təchizatı, çirkab və yağış sularının axıdılması məsələlərinin müzakirə edildiyi və məktubla rəsmiləşdiriləcəyi, ağır və iri qabaritli avadanlıqların daşınması üçün logistika marşrutlarının araşdırıldığı, "Azərenerji" ASC-dən stansiyanın elektrik şəbəkəsinə qoşulması ilə bağlı ilkin tələblərin alındığı, qoşulma nöqtələrinin təqdim edilməsi ilə bağlı da müraciətin edildiyi qeyd edildi.

Zamin Bədirxanov İES-in qaz tələbatının təxminən 450 mln. m³ olacağını qeyd edərək, bu tələbatın necə qarşılanacağı və qazın stansiyaya necə çatdırılacağı ilə maraqlandı. Cavabında N. Mehdiyev bildirdi ki, bu məsələ ilə bağlı SOCAR-ın həm Marketinq departamenti, həm də Qaz ixracı idarəsi ilə danışıqlar aparılır. O, həmçinin əlavə etdi ki, stansiyanın məqsədi həm daxili elektrik enerjisi tələbatını ödəmək, həm də elektrik enerjisini ixrac etməkdir.

Görüşün son təqdimatı ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini **Ramil Hüseyn** çıxış etdi. O, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2025–2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planının 2025-ci il üzrə icrasının monitorinqi və qiymətləndirilməsi nəticələri barədə məlumat verdi. R. Hüseyn bildirdi ki, 2025-ci il üzrə Dövlət Proqramının ümumi icra səviyyəsi 79,26% təşkil edib. Bu göstərici ilkin nəticə indikatorları üzrə 79%, aralıq nəticə indikatorları üzrə 79,3%, yekun nəticə indikatorları üzrə isə 80% olub.

Prioritetlər üzrə icra səviyyəsinə keçərkən R. Hüseyn qeyd etdi ki, qiymətləndirmə nəticələri 2023–2024-cü illərin yekunları ilə müqayisədə daha yaxşıdır və heç bir prioritet üzrə icra səviyyəsi 50%-dən aşağı olmayıb. Prioritetlərdən "Əlverişli biznes mühitinin yaradılması" üzrə icra səviyyəsi 90%, "Ticarətin inkişafı" üzrə 96,43%, "Elektrik enerjisi istehsalı və ixracı" üzrə 94,74%, "Ətraf mühitin mühafizəsi" üzrə 100% olub, digər prioritetlər üzrə də yüksək nəticələr qeydə alınıb. Ən aşağı icra səviyyəsi isə 66,04% ilə "İnstitusional inkişaf" prioritetində müşahidə olunub.

R. Hüseyn bildirdi ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı istiqamətində bütün sahələr üzrə işlər həyata keçirilir, geniş güzəşt paketləri qəbul olunub və bu işlər növbəti illərdə də davam etdiriləcəkdir. Çıxışının sonunda o, icra prosesində qarşıya çıxan əsas çətinlikləri sadaladı.

Sonda **Zamin Bədirxanov** tədbirlərin vaxtında və əlaqələndirilmiş şəkildə icrasının Dövlət Proqramında müəyyən edilmiş hədəflərə nail olunması baxımından mühüm əhəmiyyət daşıdığını və bu istiqamətdə aidiyyəti dövlət qurumları ilə birgə fəaliyyət davam etdiriləcəyini bildirdi.

Təklif:

İclasda aşağıdakı təklif səsləndirildi:

Zamin Bədirxanov Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikası ilə bağlı aktlarının və tapşırıqlarının icrasına dair Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin 2026-cı il 1 sentyabr tarixli 1 nömrəli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə qrupunun fəaliyyəti üzrə həmin akt və tapşırıqların icra vəziyyətinə dair məlumatların qrupun katibliyi və üzvləri ilə paylaşılmasını, gecikən tədbirlərin icrasının təmin edilməsi istiqamətində birgə səylərin gücləndirilməsini təklif etdi.

Qərara alındı:

1. Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikası ilə bağlı aktlarının və tapşırıqlarının icrasına dair Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin 2026-cı il 1 sentyabr tarixli 1 nömrəli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə qrupunun fəaliyyəti üzrə həmin akt və tapşırıqların icra vəziyyətinə dair məlumatların cari ilin sonunadək qrupun katibliyi və üzvləri ilə paylaşılması (Yaqub Məmmədov);
2. Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikası ilə bağlı akt və tapşırıqlarının icrasına nəzarətin gücləndirilməsi və gecikmələrin aradan qaldırılması istiqamətində birgə tədbirlərin görülməsi (bütün qrup üzvləri);
3. Dövlət Proqramı çərçivəsində icrası davam etdirilən prioritet layihələrin, o cümlədən Naxçıvan Muxtar Respublikasında azad iqtisadi zonanın (AİZ) və sənaye parkının yaradılması, həmçinin Naxçıvan İstilik Elektrik Stansiyasının tikintisi istiqamətində işlərin sürətləndirilməsi (aidiyyəti qrup üzvləri).

Əlaqələndirmə qrupunun rəhbəri: _____ Səməd Bəşirli

Regionların inkişafı şöbəsinin müdiri: _____ Zamin Bədirxanov

Katib: _____ Fariz Əhmədov